*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

İlham ƏLİYEV

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 04 (422)

28 fevral 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANIM MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

***1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətmişlər.***

***Hər il bu faciənin ildönümü ölkəmizdə, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və dost xalqların nümayəndələri tərəfindən ürəkağrısı ilə qeyd olunur. Bu il dünyanın müxtəlif ölkələrində Xocalı faciəsi qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, ermənilərin vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər nümayiş olunur.***

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak etmişdir.**

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.



Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.

Dünyanın sivil dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları, beynəlxalq ictimaiyyət bu acı həqiqəti bilməli, insanlığa qarşı törədilən bu cinayət öz hüquqi qiymətini almalıdır. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görməmişdir.Lakin xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu qanlı faciəyə ilk dəfə olaraq hüquqi-siyasi qiymət verilmişdir. 1994-cü ildə ulu öndərin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi qəbul etmişdir.

# XX ƏSRİN ƏN DƏHŞƏTLİ FACİƏSİ

***Erməni millətçilərinin vəhşicəsinə törətdikləri əsrin faciəsi - Xocalı soyqırımının bu il 22-ci ildönümü tamam oldu. Separatçı və ekstremist kimi fəaliyyət göstərən erməni quldurları Azərbaycan xalqının qanı ilə erməni cinayətkarlığına daha bir səhifə yazdılar.***

***25-26 fevral 1992-ci ildə Sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə erməni silahlı birləşmələri hələ də mülki əhalinin tərk etmədiyi Xocalı şəhərini işğal etdilər. Özlərini "özünümüdafiə dəstələri" adlandıran bu quldurların dinc əhaliyə qarşı törətdikləri vəhşiliklər qeyri-insani təbiəti ilə insanın qanını dondurur.***

***Soyqırım nəticəsində şəhəri tərk edən 2500 Xocalı sakinindən 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla - 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən güllələsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 nəfər əsir, 150 nəfər isə itkin düşdü. Dövlətin və əhalinin əmlakına 01.04.1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur.***




## İNSANLIQ ƏLEYHİNƏ CİNAYƏT

Xocalı soyqırımında iştirak etmiş ermənilərin və onların köməkçilərinin hərəkətləri insan haqlarının kobud pozulması, beynəlxalq hüquqi aktların Cenevrə konvensiyası, ümumdünya İnsan Haqları Bəyannaməsi, vətəndaş və siyasi hüquqlar barədə Beynəlxalq Saziş, Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinin tələblərinə həyasızcasına məhəl qoyulmamasıdır.

**Azərbaycan Milli Məclisi fevralın 26-nı "Xocalı soyqırımı günü" elan etmişdir. Hər il fevralın 26-da saat 17.00-da Azərbaycan xalqı Xocalı soyqırımının qurbanlarını xatirələ yad edir.**

Xocalı sakinləri Azərbaycanın 48 rayonunda məskunlaşmışlar. Onlar dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş terrorizm, etnik təmizləmə faktlarını pisləmək barədə müraciətlər edirlər.

## FACİƏNİN İCMALI

Xocalı 1991-cı ilin oktyabrından blokadada idi. Oktyabrın 30-dan etibarən şəhərə aparan bütün avtomobil yolları bağlanmış, yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı.

Xocalıya sonuncu vertolyot 1992-ci il yanvar ayının 28-də endi. Şuşa səmasında mülki vertolyotun vurulması, vertolyotun içindəki 40 nəfər azərbaycanlının həlak olmasıyla şəhərlə hava əlaqəsi də kəsildi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi də verilmirdi. Xocalılar ancaq öz qəhrəmanlıqları və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdular. Şəhərin müdafiəsi əsasən avtomat və ov tüfəngləri ilə silahlanmış yerli özünümüdafiə dəstəsi, yerli milis qüvvələri və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu.

Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələrinin mühasirəsinə alınmışdı və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz qalırdı.

Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdur ki, bu məkrli hiylə imiş. Naxçevanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləbarana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçevanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir.

Fevralın 28-də tərkibində yerli jurnalistlərin də olduğu qrup 2 vertolyotla azərbaycanlıların həlak olduqları yerə çata bildilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi - düzənlik cəsədlərlə dolu idi. İkinci vertolyotun havadan mühafizəsinə baxmayaraq, ermənilərin güclü atəşi altında ancaq 4 meyidi götürmək mümkün oldu. Martın 1-də yerli və xarici jurnalistlərin iştirakı ilə hadisə yerində daha da dəhşətli vəziyyət müşahidə olunmuşdur.

Meyidlərin skalplarının götürülməsi, qulaqlarının və digər orqanlarının kəsilməsi, gözlərin çıxarılması, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılma halları aşkar edilmişdir.

## ŞAHİDLƏRİN İFADƏLƏRİNDƏN:

**Heydərov Camal Əbdülhüseyn oğlu:** *"Qaraqaya deyilən yerin yaxınlığındakı fermanın 2 kilometrliyində eybəcər hala salınmış xeyli azərbaycanlı meyidi var idi. Qətlə yetirilmiş uşaqların sinəsini yarıb ürəklərini parçalamış, əksər meyidləri isə tikə-tikə doğramışdılar".*

**Heydərov Şahin Zülfüqar oğlu:** *"Naxçevanik kəndi (Xocalı) yaxınlığında 80-ə yaxın meyid gördüm. Meyidlər qorxulu vəziyyətə salınmış, başları kəsilmişdi. Milis mayoru Əlif Hacıyev, yaxın qohumları Səlimov Fəxrəddin, Səlimov Mikayıl da qətlə yetirilənlər arasında idi".*

**Hümbətov Cəlil Hümbətəli oğlu:** *"Ermənilər gözümün qarşısında həyat yoldaşım Firuzəni, oğlum Muğanı, qızım Simuzəri və gəlinim Südabəni güllələdilər".*

**Paşayeva Kübra Adil qızı:** *"Kətik meşəsinə girəndə ermənilərin mühasirəsinə düşdük. Gizləndiyim kolluqdan həyat yoldaşım Paşayev Şuranın, oğlum Elşadın güllələnməsinin şahidi olmuşam".*

**Əmirova Xəzəngül Təvəkkül qızı:** *"Xocalı işğal olunan zaman erməni silahlıları ailəmi bütünlüklə girov götürmüşdü. Ermənilər anam Rayanı, 7 yaşlı bacım Yeganəni və xalam Göyçəni güllələdi. Atam Əmirov Təvəkkülü isə benzin tökərək yandırdılar".*

**Mustafayeva Kübra Əliş qızı:** *"Ermənilər bizi girov götürən kimi yanımdakı altı nəfəri yerindəcə güllələdilər".*

**Kərimova Səidə Qurban qızı:** *"12 nəfərlə birlikdə girov götürüldük. Ermənilər qızım Nəzakəti, Tapdığı, Səadəti, İradəni işgəncə ilə öldürdülər".*

**Nəcəfov Əli Ağami oğlu:** *"Ermənilər qaçan adamları mühasirəyə alaraq 30-40 nəfəri yerindəcə güllələdilər".*

**Qaradağlı sakini İlqar Əliyevin açıqlaması:** *"Ermənilər Qaradağlını tutandan sonra əsir və girov götürdükləri kənd sakinlərindən 33 nəfərini öldürdülər. Sonra öldürdükləri qadın və uşaqların cəsədlərini kənd yaxınlığındakı Bəylik bağı adlanan yerdə "silos" quyusuna töküb, üzərini torpaqladılar. Mənimlə birlikdə yüzdən artıq Qaradağlı kənd sakini girov götürülmüşdü. Yolda dəhşətli işgəncələrlə qarşılaşdıq. Ermənilər iki kənd sakininin başını toxmaqla yararaq, onları əzabla öldürdülər. Bizi əvvəlcə Lingin kəndinə gətirdilər. Orada üç nəfəri, Malıbəylidə isə 12 nəfəri güllələdilər. Malıbəylidə həmin maşınlardan tökübü, piyada Xankəndiyə apardılar".*

**İ.Əliyev Xankəndidə yerləşən həbsxanada 8 Qaradağlı sakininin acından öldüyünü deyib:**

*"Ermənilər fevralın 26-da Xocalını işğal edəndə Xankəndidə həbsxanada idim. Həmin gün ermənilər yüzdən artıq adamı bu həbsxanaya gətirdilər. Sonra bildim ki, onlar Xocalı sakinləridir və bu şəhər də işğal olunub. Səhəri gün gözümün qabağında 60-a yaxın Xocalı sakininin başını kəsdilər. Onların arasında uşaq və qadınlar da var idi".*

**Qaradağlı sakini Oruc Əliyev:** "Məni fevralın 17-də əsir götürdülər. Yolda qohumlarımın yarısını öldürdülər. Xankəndidəki həbsxanada isə dişlərimi zorla çəkdilər".

**O, əsirlikdə olduğu müddətdə ermənilər tərəfindən hər gün döyüldüyünü və işgəncəyə məruz qaldığını deyib:**

*"Həmin il martın 17-də Allahverdi Bağırovun köməkliyi ilə dəyişdirildim. Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri həmin günə qədər bir dəfə də olsun xəstəxanaya gəlmədilər".*

*"Ermənilər sağlam azərbaycanlı əsir və girovların daxili orqanlarını satırdılar. Bunu əvvəlcədən tanıdığım ermənilər mənə demişdi".*

**O.Əliyevin sözlərinə görə,** Qaradağlının alınması əməliyyatına və orada baş verən qətliamlara Ermənistan prezidenti rəhbərlik edib. Oruc bu xəbəri Əsgəranda xəstəxanada yatarkən eşidib.

**Əliyeva Zoya Əli qızı** isə 150 nəfərə qədər adamla 3 gün meşədə qalıb. Meşədə Zoyanın yanında Əhmədova Dünya və onun bacısı Gülxar donaraq ölmüşdür.

## SOYQIRIM DÜNYA MƏTBUATINDA

**Krua "Eveneman" jurnalı (Paris), 26 fevral 1992-ci il:** *"Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyidlərin şahidi oldu. Azərbaycanlılar çoxlu sayda ölənlər barədə xəbər verirlər".*

**"Sandy Tayms" qəzeti (London), 1 mart 1992-ci il:** *"Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər".*

**"Faynenşl Tayms" qəzeti (London), 9 mart 1992-ci il:** *"Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar".*

**Livanlı kinooperator təsdiq etmişdir ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir.**

**"Tayms" qəzeti (London), 4 mart 1992-ci il:** *"Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır".*

**"İzvestiya" (Moskva), 4 mart 1992-ci il:** *"Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür".*

**"Faynenşl Tayms" qəzeti (London), 14 mart 1992-ci il:** *"General Polyakov bildirmişdir ki, 366-cı alayın 103 nəfər erməni hərbçisi Dağlıq Qarabağda qalmışdır".*

**"Le Mond" qəzeti (Paris), 14 mart 1992-ci il:** *"Ağdamda olan xarici jurnalistlər, Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxardılmış 3 nəfəri görmüşlər. Bu azərbaycanlıların təbliğatı deyil, bu reallıqdır".*

**"İzvestiya" (Moskva), 13 mart 1992-ci il:** *"Mayor Leonid Kravets: Mən şəxsən təpədə yüzə yaxın meyid gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü".*

**"Valer aktuel" jurnalı (Paris), 14 mart 1992-ci il:** *"Bu "muxtar regionda" erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndlərində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər".*

**R.Patrik, İngiltərənin "Fant men news" teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur):** *"Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz".*

2_Layout 1 26.02.2014 18:32 Page 1



# DAXİLİ QOŞUNLARIN GƏNC ƏSGƏRLƏRİ VƏTƏNƏ SƏDAQƏT ANDI İÇDİLƏR

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı gənc əsgərləri hərbi and içmələri münasibətilə təbrik etmişdir***





Fevralın 15-də Dövlət Bayrağı Meydanında DİN-in Daxili Qoşunlarının gənc əsgərlərinin andiçmə mərasimi keçirilmişdir. Mərasimdə əsgər valideynləri də iştirak etmişlər.

Əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunmuşdur.

Qoşunların 25031 saylı hərbi hissəsinin komandiri polkovnik Zəfər Əliyev çıxış edərək, gənc əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına sədaqət andı içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri xatırlatmışdır.

Sonra gənc əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü qanını və canını əsirgəməyəcəklərinə söz vermişlər.

**Andiçmə mərasimində iştirak edən Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov qoşunlarda yeni xidmətə başlayan gənc əsgərləri hərbi and içmələri münasibətilə təbrik etmiş və tövsiyələrini çatdırmışdır.**

Qeyd etmişdir ki, bu andan etibarən onlar da qoşunların bütün şəxsi heyəti kimi Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə hər an hazır olmalıdırlar.

O, həmçinin gənc əsgərlərə xitabən vurğulamışdır ki, bu müqəddəs andın mənasını tam dərk etməli, vətəndaşlarımızın təhlükəsizliyi və torpaqlarımızın müdafiəsi istiqamətində əllərindən gələni əsirgəməməlidirlər.

Digər çıxış edənlər də gənc əsgərləri hərbi and içmələri münasibətilə təbrik etmiş, onlara səmimi, cəsur və intizamlı, daim Vətənin müdafiəsinə hazır olmağı, bir sözlə, Azərbaycan əsgərinə xas olan bütün xüsusiyyətləri özlərində formalaşdırmağı tövsiyə etmişlər.

Mərasim gənc əsgərlərin təntənəli keçidi ilə başa çatmışdır.

**Mətbuat xidməti**

# HƏRBİ HİSSƏNİN 25-ci İLDÖNÜMÜ QEYD OLUNDU

**Fevralın 22-də Daxili Qoşunların şərəfli döyüş yolu keçmiş 16075 saylı hərbi hissəsinin 25-ci ildönümü təntənəli şəkildə qeyd olundu.**

Mərasimdə Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Sumqayıt şəhər Polis İdarəsinin rəisi general-mayor Sahib Mirzəyev, Şəxsi heyət üzrə İdarədə Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov, Veteranlar Şurasının sədri Murad Mürsəlov, şəhid olmuş silahdaşlarımızın valideynləri və digər qonaqlar iştirak edirdilər.



Hərbi hissənin şəxsi heyəti sıra meydanında yubiley mərasiminə düzülmüşdü.

Əvvəlcə qonaqlar Daxili Qoşunların istifadəsində olan silah-sursat və zirehli texnikalara baxış keçirdilər. Xüsusi təyinatlı dəstənin komandiri nümayiş olunan silah və texnikalar barədə ətraflı məlumat verdi.

Tədbir başlamazdan əvvəl iştirakçılar hərbi hissənin ərazisində torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə tər gül dəstələri qoydular. Ardınca ümummilli lider Heydər Əliyevin, eləcə də şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı. Hərbi orkestrin müşayiətilə dövlət himni ifa olundu.

Hərbi hissə komandiri polkovnik-leytenant Cavad Rzayev mərasim iştirakçılarına hərbi hissənin 25 ildə keçdiyi döyüş yolu haqqında geniş məlumat verdi. Qeyd etdi ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəxsi heyət xüsusi şücaət və fədakarlıq göstərmişdir. Horadiz-sərhədyanı yaşayış məntəqəsinin və 12-dən artıq kəndin azad olunması ilə nəticələnən döyüşlərdə 16 nəfər şəhid olmuş, 3 nəfər isə itkin düşmüşdür. Daxili Qoşunların ilk şəhidi çavuş Hətəmxan Babayev və Daxili Qoşunların Milli Qəhrəmanı əsgər Ruslan Muradov məhz bu hərbi hissədə xidmət etmişlər.

Hərbi hissə komandiri döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması üçün yaradılan hərtərəfli şəraitə, şəxsi heyətə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə, həmçinin Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunlar Komandanının təbrikini şəxsi heyətə çatdırmaq üçün söz Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik M.Qənbərova verildi.

Təbrikdə hərbi hissənin digər hüquq-mühafizə orqanları ilə birgə Sumqayıt şəhərində cinayətkarlıqla mübarizədə, ictimai asayişin, daxili sabitliyin qorunub saxlanılmasında yüksək fəallıq göstərdiyi qeyd olunmuşdur. Ali Baş Komandanın Daxili Qoşunlara olan diqqət və qayğısının önə çəkildiyi təbrik məktubunda xüsusi olaraq vurğulanmışdır ki, göstərilən bu etimadın daima qorunub saxlanılması, döyüş hazırlığının daha da yüksəldilməsi şəxsi heyətin qarşısında duran ən mühüm vəzifələrdəndir.

Hərbi hissənin yubiley mərasimində çıxış edən Sumqayıt şəhər İcra başçısı E.Əzizov hər il Daxili Qoşunlarda gedən yüksək inkişafın şahidi olduğunu bildirdi. Əslində, hər bir vətəndaşın Azərbaycanın əsgəri olduğunu söyləyən E.Əzizov qoşunların hərbi qulluqçularını gördükdə qürur hissi duyduğunu və belə övladlara sahib olan Vətənin basılmaz olduğunu vurğuladı.

Tədbirdə Daxili Qoşunların Veteranlar Şurasının sədri Murad Mürsəlov və digər rəsmi qonaqlar da şəxsi heyət qarşısında çıxış edərək onlara öz təbriklərini çatdırdılar.

Hərbi hissənin yaranmasının 25-ci ildönümü münasibətilə yüksək peşə hazırlığı, nümunəvi intizamı



ilə fərqlənən hərbi qulluqçular mükafatlandırıldılar.

Şəxsi heyətin təntənəli keçidindən sonra Döyüş Bayrağı sıra meydanından aparıldı.

Xüsusi təyinatlı dəstənin nümunəvi-göstərici çıxışı tədbir iştirakçıları tərəfindən sürəkli alqışlarla qarşılandı.

Mərasim Daxili Qoşunların hərbi orkestrinin konsert proqramı ilə davam etdirildi.

**leytenant T.Əlizadə**

*"Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir".*

**Heydər Əliyev, Azərbaycan xalqının ümummilli lideri**

Əsgər valideynlərinin öz övladlarını böyük qürur hissi ilə hərbi xidmətə yola salması, ordu quruculuğu işində yaxından iştirak etməsi xalqımızın orduya olan sevgisinin təzahürüdür. Hərbi hissələrimizdə əsgər valideynləri ilə təşkil olunan görüşlərdə bu fikir bir daha öz təsdiqini tapır.

Fevralın 16-da Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov qoşunların 67987 saylı hərbi hissəsində növbəti dəfə əsgər valideynləri ilə görüşmüşdür. General-mayor Ş.Məmmədovun əsgər valideynləri ilə bu hərbi hissədə sayca 3-cü görüşü idi.

Görüşün təşkil olunmasında əsas məqsədin valideynlərin müraciətlərinin dinlənilməsi olduğunu vurğulayan Daxili Qoşunların Komandanı əvvəlcə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkənin iqtisadi gücünün artması və bunun nəticəsində maddi-texniki təminatına görə regionda liderliyi əldə saxlayan ordumuzun inkişafı, habelə sabitliyin qorunub saxlanılmasında mühüm rol oynayan Daxili Qoşunların əldə etdiyi nailiyyətlər barədə geniş məlumat vermişdir.

# ƏSGƏR VALİDEYNLƏRİ İLƏ NÖVBƏTİ GÖRÜŞ KEÇİRİLMİŞDİR



O, qeyd etmişdir ki, dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması qoşunların bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına səbəb olmuşdur: ***"Daxili Qoşunların hərbi hissələri hazırda ölkə prezidentinin böyük qayğısı sayəsində özünün yüksək inkişaf mərhələsini yaşamaqdadır. Ürəyi Vətən eşqilə döyünən gənclərimizin Silahlı Qüvvələrdə, o cümlədən Daxili Qoşunlarda xidmət etmək istəklərinin kütləvi hal alması da məhz ölkədə ordu quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü siyasətin bariz nümunəsidir. Qoşunların gücünü artıran, şəxsi heyətin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Ali Baş Komandanın hərbi hissələrə ardıcıl səfərlər etməsi, əsgər və zabitlər üçün yaradılmış hərtərəfli şəraitlə yaxından tanış olmasıdır".***

**Qoşunlarda bütün sahələrə, o cümlədən şəxsi heyətin nizam-intizamına, hərbi biliklərinin artırılmasına, fiziki hazırlığına, sağlamlığına xüsusi diqqət yetirildiyini vurğulayan cənab Komandan əlavə etmişdir ki, məqsəd hərbi qulluqçularımızı öz valideynlərinə, xüsusilə də Vətənə layiqli övlad kimi formalaşdırmaqdır.**

Hərbi hissənin Əsgər Valideynləri Komitəsinin sədri Bədr Bayramov əsgər valideynləri adından övladları üçün yaradılmış hərtərəfli şəraitə görə dərin minnətdarlığını bildirmişdir. Ordunun gücləndirilməsində onların da üzərinə böyük məsuliyyətin düşdüyünü söyləyən valideynlər birmənalı olaraq vurğulamışlar ki, xidmətə qədərki dövrdə övladlarını elə tərbiyə etməlidirlər ki, onlar sözün əsl mənasında Vətənini, xalqını sevsin, dövlətə, prezidentə sədaqətli olsunlar.

Görüşdə əsgər valideynləri fərdi qaydada müraciətlər etmiş, arzu və istəklərini bildirmişlər. Qaldırılan məsələlərin nəzarətdə saxlanılması istiqamətində konkret göstərişlər verilmiş, həlli mümkün olanlar isə dərhal yerinə yetirilmişdir.

Sonra valideynlər əsgərlərin məişət şəraiti ilə tanış olmuş və əsgər yeməkxanasında övladları ilə birgə nahar etmişlər.

Xatırladaq ki, artıq ənənə halını almış belə görüşlər Bakı şəhərində yerləşən bütün hərbi hissələrdə, regionlarda isə 17074, 16077 və 16073 saylı hərbi hissələrdə keçirilmişdir.

**"Əsgər"**

# SAVADLI VƏ BACARIQLI ƏSGƏRLƏR



*Müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ədalət Eldarzadə 1992-ci ildə yanvarın 24-də Göygöl rayonunda anadan olub. Orta təhsilini tamamladıqdan sonra həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmətini başa vuran əsgər Ə.Eldarzadə 2012-ci ildən Daxili Qoşunların 17072 saylı hərbi hissəsində xidmətini davam etdirir.*

*Daim öz üzərində çalışan hərbi qulluqçumuz bildirir ki, təhkim olunmuş silahların taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəmək, fiziki gücünü artırmaq əsas tələblərdir.*

*O, komandirlərin verdiyi tapşırıqlara daha məsuliyyətlə yanaşır və onların öhdəsindən layiqincə gəlir. Hər zaman nizam-intizamlı hərbi qulluqçu kimi yoldaşlarına nümunə olmağa çalışır.*



*Əsgər Mirbaba Əliyev isə 1992-ci ildə oktyabrın 3-də Neftçala rayonunun Sübh kəndində anadan olub. 2009-2013-cü illərdə Bakı Avrasiya Universitetinin "Beynəlxalq jurnalistika" fakültəsində ali təhsil alıb. 2013-cü ilin iyun ayından Daxili Qoşunların 17072 saylı hərbi hissəsində həqiqi hərbi xidmətdədir.*

*Əsgərliyin hər bir kəsin həyatında önəmli olduğunu vurğulayan Mirbaba dedi ki, Vətənini sevən hər bir insan mütləq əsgər adını daşımalı, Vətənin hər qarış torpağını göz bəbəyi kimi qorumalı, onun uğrunda hər şeydən keçməyi bacarmalıdır. Əlavə etdi ki, əsgərlik həyatını yaşadıqca həyatı daha dərindən anlayır, dərk edir və yaxşı mənimsəyirsən. Hər bir Azərbaycan əsgəri kimi onun da ən böyük arzusu işğal altında qalan Qarabağın azad edilməsidir.*

**gizir X.Tağıyeva**

3_Layout 1 26.02.2014 18:12 Page 1



# DAXİLİ QOŞUNLARDA CİDDİ NİZAM-İNTİZAM HÖKM SÜRÜR

*Tərbiyə işinin düzgün istiqamətdə təşkili qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsini şərtləndirən əsas amillərdəndir*

**Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinin yüksəldilməsinin müxtəlif təminatları mövcuddur. Lakin bunlardan mənəvi-psixoloji təminat müstəsna əhəmiyyət kəsb edir. Əslində, mənəvi-psixoloji təminat dedikdə kompleks şəkildə həyata keçirilən tədbirlər nəzərdə tutulur. Həmin tədbirlərdən ən önəmlisi isə tərbiyə işidir desək, yəqin ki, yanılmarıq. Çünki qoşunların və bütövlükdə hərbi hissələrin qarşısına qoyulmuş tədbirlərin müvəffəqiyyətlə həyata keçirilməsində tərbiyə işi mühüm rol oynayır. Daxili Qoşunlarda tərbiyə işinin yüksək səviyyədə təşkil edilməsində DQBİ-nin Mənəvi-psixoloji hazırlıq şöbəsinin işini xüsusilə vurğulamaq lazımdır.**

Şöbə rəisi polkovnik Mətləb Qənbərov Daxili Qoşunların döyüş hazırlığının təkmilləşdirilməsi, hərbi hissələrdə nizam-intizamın möhkəmləndirilməsi məqsədilə tərbiyə işinin yüksək səviyyədə təşkil olunduğunu bildirdi. Qeyd etdi ki, bütövlükdə tərbiyə işi Azərbaycan Respublikası Konstitusiyasının, Hərbi Nizamnamələrin, Daxili İşlər Nazirinin və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının əmr və direktivlərinin, həmçinin Şəxsi heyət üzrə İdarə rəisinin göstərişlərinin və digər qanunvericilik aktlarının tələblərinə əsasən təşkil edilir.

Polkovnik M.Qənbərov söylədi ki, tərbiyə işinin əsas vəzifələri ilk növbədə hərbi qulluqçularda Vətənə, dövlətə, dövlətçiliyə və hərbi anda sadiqlik, hərbi xidmətin çətinliklərinə dözümlülük keyfiyyətlərinin formalaşdırılmasıdır. Bundan əlavə, hərbi qulluqçuların Azərbaycan Respublikasının qanunlarının, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl edilməsi ruhunda tərbiyə olunması, hərbi peşəkarlığın artırılması istiqamətində səylərin gücləndirilməsi, silahlardan istifadə qaydalarının öyrənilməsi və hərbi peşə keyfiyyətlərin artırılması da vacib vəzifələrdəndir.

Şöbə rəisi onu da əlavə etdi ki, hərbi hissələrdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, eləcə də onların asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində



müxtəlif işlər görülür: "Həftənin müəyyən olunmuş günlərində və gün nizamının müəyyən olunmuş vaxtlarında şəxsi heyətlə tərbiyə işi saatları təşkil olunur. Çünki qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi hərbi qulluqçuların hərtərəfli hazırlığından asılıdır. Bu baxımdan tərbiyə işinin təşkil olunarkən hərbi intizamın, hərbi kollektivlərin möhkəmləndirilməsinə, hərbi qulluqçuların, şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin olunmasına, vətəndaşların hüquq və azadlıqlarının qorunmasına xüsusi diqqət yetirilir".

Söhbət zamanı məlum oldu ki, tərbiyə işi müxtəlif ictimai təşkilatlarla, dövlət hakimiyyət orqanları, qeyri-hökümət təşkilatları ilə qarşılıqlı əlaqəli şəkildə təşkil olunur. Həm Daxili Qoşunların Baş İdarəsinə, həm də hərbi hissələrə müxtəlif dövlət və hökümət nümayəndələri dəvət olunur, şəxsi heyətlə tərbiyəvi mövzuda söhbətlər aparılır.

Polkovnik M.Qənbərov bu vacib və məsuliyyətli işdə şöbənin hərbi qulluqçularının əməyini diqqətə çatdırdı. Söylədi ki, tərbiyə işinin keyfiyyətlə həyata keçirilməsi daim Mənəvi-psixoloji hazırlıq şöbəsinin zabitlərinin nəzarətindədir.

O, bu gün tərbiyə işinin təşkil olunması prosesində gənclərin daha çox vətənpərvərlik, dövlət və dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunmasına diqqət yetirildiyini söylədi: "Müntəzəm olaraq Azərbaycanın Milli Qəhrəmanlarının, torpaqlarımızın ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət göstərmiş şəhidlərimizin qəhrəmanlıqları haqqında gənclərlə söhbətlər aparılır. Vətənpərvərlik mövzusunda maarifləndirici və təbliğat xarakterli əyani vəsaitlər, təşviqat və təbliğat materialları hazırlanaraq dərc olunur, hərbi hissələrə göndərilir".

Sonda polkovnik M.Qənbərov Daxili Qoşunlarda və yerlərdə tərbiyə işinin mövcud vəziyyətinə də toxundu. Bildirdi ki, bu işə cavabdeh olan vəzifəli şəxslər işlərinin öhdəsindən layiqincə gəlir, tabeliyində olan hərbi qulluqçuların tərbiyəsində fəal iştirak edir, öz vəzifə borclarını mükəmməl bilir və vicdanla yerinə yetirirlər. Eyni zamanda, şəxsi heyətin döyüş ruhunun yüksəldilməsi üçün bütün bilik və bacarıqlarını əsirgəmir, şəxsi heyətə diqqət və qayğı ilə yanaşırlar. Hərbi hissələrdə nizamnamə qaydalarına ciddi riayət olunur və tərbiyə işinin təşkili yüksək səviyyədədir. Bunun nəticəsidir ki, bu gün Daxili Qoşunların bütün hərbi hissələrində ciddi nizam-intizam hökm sürür.

Bütün bunlar bir daha Daxili Qoşunlarda tərbiyə işinin düzgün istiqamətdə qurulduğunun göstəricisidir.

Sevindirici haldır ki, şəxsi heyətin son dərəcə nizam-intizamlı olması Daxili Qoşunlara gələn bütün qonaqlar, o cümlədən əsgər valideynləri tərəfindən xüsusilə vurğulanır.

**gizir X.Tağıyeva**

Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin Qazax rayonunda yerləşən taboru özünün nizam-intizamlı, bilik və bacarıqlı hərbi qulluqçuları ilə seçilir.

Taborun tərbiyə işləri üzrə müavini baş leytenant Qüdrət Əliyevlə söhbət zamanı bir daha bunun şahidi oldum. Şəxsi heyətlə tərbiyə sahəsində aparılan tədbirlər haqqında danışan baş leytenant Q.Əliyev həmin tədbirlərin Daxili Qoşunların Komandanının müvafiq direktivinin tələblərinə və bölüyün aylıq mənəvi-psixoloji hazırlıq planına uyğun olaraq təşkil olunub keçirildiyini

## TƏLİM VƏ MƏŞĞƏLƏLƏR KEYFİYYƏTLƏ TƏDRİS EDİLİR



bildirdi. Qeyd etdi ki, bu tədbirlər arasında ən çox hərbi qulluqçularla fərdi söhbətlərin aparılmasına önəm verilir.

Taborun şəxsi heyəti ilə qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsi, kollektivdə qarşılıqlı münasibətlərin düzgün qurulması mövzusunda söhbətlər aparılır və onlar vətənpərvər ruhda tərbiyə olunurlar. Bundan əlavə, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması məqsədilə keçirilən məşğələlər keyfiyyətlə tədris edilir, Daxili Qoşunların Komandanının tapşırıq və tövsiyələri çatdırılır. Təlim-tədris prosesinin düzgün şəkildə keçirilməsi birmənalı olaraq öz müsbət təsirini verməkdədir. Bunu onların davranışlarında da hiss etmək olur.

Baş leytenant Qüdrət Əliyev bu işdə ona yaxından köməklik göstərən hərbi qulluqçulardan baş leytenant Elvin Abdullayevin, müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Elvin Məmmədov, çavuş Nurulla Nəsirlinin və Hərbi kollektiv şurasının sədri əsgər Mirbaba Əliyevin adlarını çəkdi.

**gizir X.Tağıyeva**

# HƏRBİ HİSSƏ ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏRİN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLİR



**Daxili işlər orqanları ilə birlikdə ictimai asayişin qorunması, habelə kütləvi tədbirlər keçirilərkən ictimai təhlükəsizliyin təmin olunması Daxili Qoşunların əsas vəzifələrindəndir. Qoşunların Quba rayonunda yerləşən 16073 saylı hərbi hissəsi üzərinə düşən bu və digər vəzifələrin öhdəsindən layiqincə gəlir.**

Regionun relyefinin mürəkkəbliyi (əsasən meşəlik-dağlıq ərazilərdən ibarət olması - red.) şəxsi heyəti peşə vərdişlərini artırmağa, öz üzərində daha çox işləməyə, bir sözlə əzmkar xidmətə sövq edir.

Bu baxımdan şərti olaraq "Bəbir" adlandırılan xüsusi təyinatlılar qarşıya qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi fədakarlıq göstərirlər.

### HƏRBİ HİSSƏNİN "BƏBİR"LƏRİ KİFAYƏT QƏDƏR HAZIRLIQLIDIR

Mayor Namiq Quliyev dəstənin xidməti-döyüş fəaliyyəti haqqında məlumat verdi. Onun sözlərinə görə, dəstə verilən tapşırığa uyğun olaraq, regionda ictimai sabitliyi qorumağa, silahlı cinayətkarları məhv etməyə, eləcə də hər an qarşıya çıxa biləcək qəfləti tapşırıqları uğurla yerinə yetirməyə hazırdır. Üzərlərinə düşən vəzifələrin məsuliyyətindən danışan dəstə komandiri hava şəraitindən asılı olmayaraq, təlim-məşq proseslərini davam etdirdiklərini bildirdi. Qeyd etdi ki, təlimlər hərbi qulluqçularda həm fiziki keyfiyyətləri artırır, həm də dözümlülük, çeviklik kimi xüsusiyyətləri formalaşdırır. Məşğələlər əsasən dağlıq, meşəlik ərazilərdə, o cümlədən binada gizlənmiş cinayətkarların zərərsizləşdirilməsi mövzularında olur. Təlim-məşq prosesləri zamanı qabaqcıl ölkələrin təcrübələrindən də istifadə olunur.

Hərbi qulluqçularda fiziki və atəş hazırlığına üstünlük verdiyini söyləyən dəstə komandiri diqqəti daha çox sürətli və sərrast atəş açma məşğələrinə yönəltdiklərini dedi.

Leytenant Qiyas Məmmədov, baş çavuş Alış Həsənov, çavuşlar Sübhan Buludov, Sahil Həsənov, kiçik çavuşlar Gülhüseyin Paşayev və Vüqar Ağamirzəyev şəxsi heyətin bilik, bacarığının artırılmasında yaxından iştirak edirlər.

### XÜSUSİ-TAKTİKİ TƏLİMLƏRƏ DAHA ÇOX DİQQƏT YETİRİLİR

Mayor Cavid Mirzəyev isə xüsusi vasitələrin tətbiqi bölməsinin döyüş hazırlığından danışdı. Qeyd etdi ki, nəzəri və praktiki məşğələlərə, əsasən də xüsusi-taktiki təlimlərin keçirilməsinə diqqət yetirilir. Şəxsi heyətə xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətləri, onlardan istifadə qaydaları öyrədilir. Onlar həmçinin bölmə, qrup və yarımqrup tərkibində praktiki təlimlərə də cəlb olunurlar.

Nəzəri məşğələlər zamanı qrup komandirləri tabeçiliyində olan şəxsi heyətə həvalə olunmuş vəzifələri izah edir. Bununla yanaşı, biliklərinin artırılması istiqamətində dərslər keçirilir. Əldə olunmuş nəzəri biliklərdən praktiki təlimlərdə istifadə olunur. Bölmədə bütün hərbi qulluqçular vəzifə borclarını yüksək səviyyədə bilirlər və



onların öhdəsindən layiqincə gəlirlər.

Gizir Ramin Durmuşov, baş çavuş Elman Nəbiyev, müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Şəhriyar Abdullayev və əsgər Əfşan Abdullayev bölmənin döyüş hazırlığının yüksəldilməsində əllərindən gələni əsirgəmirlər.

### MƏNƏVİ-PSİXOLOJİ HAZIRLIQ YÜKSƏK SƏVİYYƏDƏDİR

Hərbi hissənin əsas bölmələrindən biri də Artilleriya batareyasıdır. Batareyanın vəzifəsi düşmənin canlı qüvvəsini məhv etmək, zirehli texnikasını sıradan çıxarmaqdan ibarətdir. Bundan başqa, düşmənin canlı qüvvəsini basqı altında saxlamaqla hücuma keçən qüvvələrimizin sərbəst hərəkətini atışlarla müşayiət etmək və müəyyən istiqamətə qədər irəliləməsini təmin etməkdir. Bu çətin, lakin məsuliyyətli vəzifəni yerinə yetirən şəxsi heyətin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir.

Artilleriya batareyasının tərbiyə işləri üzrə müavini (VİE) leytenant Alı Həsənzadə də bu fikri təsdiqləyərək vurğuladı ki, şəxsi heyətdə ruh yüksəkliyinin formalaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Hərbi qulluqçularla daima fərdi və kollektiv söhbətlər aparılır, tərbiyəvi mövzularda məşğələlər keçirilir. Həmçinin ölkədə və dünyada baş vermiş ən son hadisələr şəxsi heyətin diqqətinə çatdırılır.

Leytenant A.Həsənzadə qabaqcıl əsgərlərdən Fərid Həsənlinin, Mustafa İbrahimlinin, Heydər Bayramovun, Sənan Ərəbovun adlarını qeyd etdi.

### SAĞLAMLIĞIN KEŞİYİNDƏ...

Regionda kəskin soyuq iqlim şəraitinin üstünlük təşkil etməsi şəxsi heyətin sağlamlıq durumuna diqqətin artırılmasını tələb edir.

Tibb xidməti rəisi tibb xidməti mayoru Pərviz Seyidgülov hərbi qulluqçuların sağlamlığının qorunması istiqamətində görülən işlər barədə ətraflı məlumat verdi. Bu işlərin illik tədbirlər planı əsasında profilaktik tədbirlərdən ibarət olduğunu bildirdi. Aşkar olunmuş xəstəliklərə qarşı isə dərhal əks-epidemik tədbirlər həyata keçirilir. Bu sahədə qarşıya çıxa biləcək problemlərin qarşısının alınması üçün tibb məntəqəsində hər cür şərait mövcuddur.

Məntəqə bütün növ dərman preparatları, müasir standartlara cavab verən tibbi avadanlıqlarla təchiz olunmuş, o cümlədən yeni stomotoloji aparat alınmışdır.

Həkim-stomotoloq gizir Rahim Orucov diş ağrıları ilə məntəqəyə müraciət edən hərbi qulluqçuları müayinə və müalicə edir.

Bölüklərdə, qarovul məntəqəsində dezinfeksiya işlərini isə sanitar təlimatçı-dezinfektor çavuş Ülviyyə Kərimova həyata keçirir.

Şəxsi heyətin mənəvi və döyüş



hazırlığının yüksək olması onu deməyə əsas verir ki, hərbi hissə regionda daxili sabitliyin və ictimai asayişin qorunub saxlanılmasında üzərinə düşən vəzifələri fədakarlıqla yerinə yetirir

**leytenant T.Əlizadə**

4_Layout 1 27.02.2014 9:08 Page 1



## BİZİM ŞÜAR:

**“MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!”**

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə “yoldaş” Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

**1988-ci ildə** Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

**1988-1993-cü illərdə** aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

*Zərif cinsin təntənəsi*

# 8 MART BEYNƏLXALQ QADINLAR GÜNÜDÜR

*“Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi, millətinə, torpağına olan hədsiz məhəbbəti, gözəlliyi və Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır”*

*Heydər Əliyev,*
*Azərbaycan xalqının ümummilli lideri*

**Ülvilik, zəriflik və gözəllik rəmzi olan Azərbaycan qadını bütün dövrlərdə öz istedadı, zəkası və iradəsi ilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və yaşadılmasında müstəsna xidmətlər göstərib. Tariximizin və mədəniyyətimizin neçə-neçə parlaq səhifəsi Onun adı ilə bağlıdır. Azərbaycan qadını dünyaya bəşəriyyətin mədəni fikir xəzinəsinin incilərini yaradan ədəbi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər bəxş edib. İndi də Azərbaycan qadını taleyüklü milli məsələlərin həllinə sanballı töhfələr verir. Elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qazandığı nailiyyətlər Azərbaycan qadınının çox böyük potensiala malik olduğunu təsdiq edir.**

Getdikcə qadının cəmiyyətdə artan nüfuzu əks cinsin nümayəndələrini onların hüquq və səlahiyyətlərinə hörmətlə yanaşmağa sövq edir. 1910-cu ildə, sosialist qadınların Konpenhagendə keçirdikləri ikinci beynəlxalq konfransdan sonra qadın cəmiyyətin aktiv fərdi kimi öz hüquqlarını tələb etməyə başladı.

8 Martın təqvimə əlamətdar gün kimi düşməsinin səbəbkarı 1910-cu ildə həmin tarixin bayram kimi qeyd olunması təşəbbüsünü irəli sürmüş Klara Setkindir. Bayram ilk dəfə 1911-ci ildə ABŞ-da və bir sıra Avropa ölkələrində qeyd olunub. 8 mart 1966-cı ildə SSRİ rəhbəri Leonid Brejnevin sərəncamı ilə qeyri-iş günü və dövlət səviyyəli bayram elan edilib.

Məhz Klara Setkinin fədakarlığı nəticəsində 8 Mart qadınlar üçün əlamətdar tarixə çevrildi. Beləliklə, 8 Mart qadınların Ümumxalq bayramı kimi qeyd olunmağa başlandı.

Bu gün SSRİ-nin keçmiş respublikalarında, habelə Anqola, Burkina-Faso, Qvineya-Bisau, Kamboca, Çin, Konqo, Laos, Makedoniya, Monqolustan, Nepal, Şimali Koreya



və Uqandada martın 8-i qeyri-iş günü sayılır. Hətta BMT 8 martı beynəlxalq qadınlar günü kimi tanıyıb.

Amma dünyanın bir çox ölkələrində müxtəlif vaxtlarda qeyd olunan Analar günü bayramı da var. Avstraliya, Belçika, Danimarka, İtaliya, Türkiyə, Finlandiya, ABŞ və Yaponiyada Analar günü mayın ikinci bazar gününə düşür. Hindistanda oktyabrın əvvəllərində on əli olan Durqa adlı ana-ilahənin şərəfinə on günlük Durqa Puca bayramı keçirilir. İspaniya və Portuqaliyada anaları dekabrın 8-də, Fransa və İsveçdə isə mayın sonuncu bazar günündə təbrik edirlər.

8 Mart Azərbaycanda indiyədək qeyd edilir. Müasir dövrdə Azərbaycan qadını inkişaf etmiş sivil ölkələrin qadınlarından heç nə ilə geridə qalmır, hətta elmin bir sıra sahələrində öndə gedir.

1998-ci ildə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur. Ölkəmiz BMT-nin qadın məsələləri üzrə komissiyasının tamhüquqlu üzvüdür.

1995-ci ildə isə ölkəmiz qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulub.

Hazırda səhiyyədə çalışanların və təhsil işçilərinin yarıdan çoxu qadınlardan ibarətdir. Milli Məclisin yetərincə üzvləri, iki komitə sədri, ombudsman, iki nazir müavini də zərif cinsin nümayəndələridir.

Bu gün Azərbaycan Qadını öz zənginliyi, tərəqqi və inkişafı ilə bir çox ölkələrə nümunə olan bir məmləkətin xanımıdır.

Bütün Azərbaycan qadınlarını, o cümlədən bizimlə birgə xidmət edən xanımlarımızı 8 Mart - Beynəlxalq qadınlar günü münasibətilə səmimi qəlbdən təbrik edir, qadın xoşbəxtliyi və daim zirvədə olmağı arzu edirik.

***Bayramın mübarək, Azərbaycan Qadını!***

**“Əsgər”**

## HƏRBİ XƏBƏRLƏR - YENİLİKLƏR -

### SUDA VƏ QURUDA HƏRƏKƏT EDƏN ƏN MODERN ZİREHLİ TEXNİKA

“Anadolu” agentliyinin məlumatına görə, “Qunduz” adı verilən hərbi texnika Türkiyə Quru Qoşunlarının istifadəsinə verilib.

Yerli istehsal olan amfibiya döyüş maşını, adından da göründüyü kimi, suda üzməsi ilə diqqəti çəkir. Onun bu xüsusiyyəti hərəkət zamanı başqa texnikalara ehtiyacı aradan qaldırır.

Suda üzmə və quruda hərəkət etmə qabiliyyətinə görə əvvəllər istehsal edilmiş anoloji texnikaları üstələyən 20 tonluq “Qunduz” dünyada bu qəbildən olan döyüş maşınları arasında ən modern variantdır.




### ÇOXFUNKSİYALI YENİ RADİOSTANSİYA

Anadolu xəbər agentliyinin digər xəbərinə görə, ASELSAN şirkəti yeni "4900 ATLAS" rəqəmsal xəritəli əl radiostansiyaları istehsal edib. Bu cihaz vasitəsilə səslə yanaşı, məlumat transferini həyata keçirmək, telefon nömrələrini axtarmaq, qısa mesaj göndərmək mümkündür. Radiostansiyadan həmçinin GPS cihazı kimi də istifadə edilə bilər. Hər bir radiostansiyanın xüsusi kodları mövcuddur. Artıq rabitə cihazları İstanbul, Ankara və İzmirdəki birliklərə göndərilib.

İstifadəçi rabitə vasitəsinin ekranındakı elektron xəritədə yerini görə bilir və harada olduğu barədə məlumat radiostansiya üzərindən mərkəzə çatdırılır.

Rabitə vasitələrində mobil telefonlarda olduğu kimi zəng səsi seçmə, mesaj tonu təyin etmə kimi xüsusiyyətlər də var.

Geniş LCD ekranı olan radiostansiya yüksək tutumlu batareyaları ilə uzun müddət işləyə bilir.

# ETİKET QAYDALARININ İNCƏLİKLƏRİ

**Hər bir rəsmi qəbul, ziyafət əslində mühüm siyasi tədbirdir. Bu zaman etiket qaydalarını bilmək və onlara riayət etmək mütləqdir.**

Beynəlxalq təcrübəyə əsasən rəsmi qəbullar, bir qayda olaraq, mümkün qədər sadə keçirilməlidir. Diplomatik qəbullarda milli kolorit də öz əksini tapmalıdır. Yəni, bütün dövrlərdə milli ənənələr, milli xüsusiyyətlər qorunmalıdır. Bu sahədə Çin, Yaponiya, Cənubi və Cənub-Şərqi Asiya ölkələri xüsusilə fərqlənir.

Belə ki, hələ XX əsrin 50-ci illərinin ortalarında Çinə səfər etmiş yazıçı Vanda Vasilevskaya qeyd edirdi ki, Çində təyyarədən başqa bütün uçanları, tankdan başqa bütün sürünənləri və sualtı qayıqdan başqa bütün üzənləri yeyirlər.

**Özünü masa arxasında aparmaq mədəniyyəti də etiketin mühüm tərkib hissəsidir.** Bununla yanaşı, bəzi ölkələrdə spesifik xüsusiyyətlər qorunub saxlanır ki, bunu da nəzərə almaq lazımdır. Buna görə də ümumi "qızıl qayda" belədir: qonşuna fikir ver, onun kimi hərəkət et, onda, çox güman ki, səhv etməzsən. Bəzən elə olur ki, bir şəxsin qeyri-münasib hərəkəti ümumilikdə heyətin adına xələl gətirə bilər. Məsələn, çay (qəhvə) içərkən ağzını yandırmaq, fincanı aşırmaq, çayı masa qonşusunun üstünə dağıtmaq, bıçaq və çəngəli qaydasız götürmək, kəsilməli olmayan ərzağı doğramaq və s.

Mütəxəssislərin qənaətinə görə, masa arxasında elə oturmaq lazımdır ki, həm yemək, həm də ünsiyyət üçün rahat olsun. Bunun üçün nə çox aralı, nə də yaxın əyləşmək lazımdır. Dəsmalı dizin üstünə qoymaq, yeməkdən sonra isə onu bükmədən və düzəltmədən boşqabın sol tərəfinə qoymaq məsləhət görülür. Səhər, nahar və şam yeməyi vaxtı menyüdə göstərilmiş xörəklərin sayına uyğun olaraq boşqabın sağ tərəfinə bıçaqlar, sol tərəfinə isə çəngəllər qoyulur. İlk olaraq sağ və sol kənardakı çəngəl və bıçaqlardan istifadə olunur. Balıq xörəyi üçün xüsusi bıçaq nəzərdə tutulur. Əlavə yeməyə ehtiyac olmadığını bildirmək üçün bıçaq və çəngəl boşqabın sağ tərəfinə qoyulur.

**Masa arxasında söhbət edərkən, öz fikirlərini "möhkəmlətmək" üçün bıçaq və çəngəli yellətmək qəti yolverilməzdir.**

İsti yemək verilərkən xüsusilə ehtiyatlı olmaq lazımdır. Tələsmədən xörəyin soyumasını gözləmək, yaxud qaşığa xörəyi az götürmək vacibdir. Yemək bəzən tək, bəzən cüt qulplu qablarda verilir. Tək qulplu qabdakı yeməyi çay kimi içmək, cüt qulplu qabdakı yeməyi isə qaşıqla yemək məqsədəuyğundur. Çörəyi əllə götürüb kiçik hissələrlə qoparmaq məsləhət görülür. İstər qaşıq, istərsə də çəngəl boşqaba dəyərək səs çıxarmamalıdır.

İkinci xörək kimi süfrəyə verilən ət xörəyindən lazımi miqdarda kiçik hissəciklər kəsilir. Bəzən balıq və ət xörəklərindən sonra müxtəlif növ pendirlər paylanılır. Əgər kimsə bir yox, iki növdən dadmaq istəsə, qəbahət hesab olunmur. Vazada meyvə qoyulubsa, sizə yaxın tərəfdən götürmək məsləhətdir. Ziyafətlər iştirakçıların zövqünə uyğun olaraq, qəhvə yaxud çay dəsgahı ilə yekunlaşır. Mərasimdə mürəbbə, qənd və limon mütləq ayrılıqda paylanılır.

**Bəzən etiket qaydaları tam bilmədikdə insanların hərəkətlərində müəyyən mənada "büdrəmələr" hiss olunur.** Bu hal xüsusən də xanımlarla bir masa arxasında əyləşərkən özünü büruzə verir. Məsələn, əgər sizinlə yanaşı xanım əyləşirsə, stulu masadan aralayıb onun oturmasına kömək etməyi özünüzə əziyyət hesab etməyin. Ev sahibi və xanımlar öz yerlərini tutmamış oturmaq məsləhət deyil. Bütün mərasim boyu yanınızda əyləşən xanıma qarşı diqqətli olmaq isə sizin borcunuzdur.

**Qəbullarda bəzən bir neçə kəlməlik çıxışlara da yer verilir.** Bu zaman etiket qaydalarının tələblərinə əsasən yeməyi, içməyi, danışmağı kəsmək və çıxış edən səmtə dönərək çıxışa qulaq asmaq lazımdır.

"Kokteyl", "furşet" tipli qəbullarda isə qonaqlar əsasən özləri-özlərinə xidmət göstərirlər. Amma bu zaman da etikanı yaddan çıxarmaq olmaz. Unutmayın ki, sizdən başqa da stola yaxınlaşmaq istəyən var. Ona görə də boşqaba yemək qoyduqdan sonra stoldan kənarlaşmaq və digər qonaqlar üçün də şərait yaratmaq lazımdır.

**Dəvət olunan yerlərə vaxtında gəlmək və gecikmədən getmək də etiket qaydalarının tələblərindən biridir.** Deyirlər ki, İngiltərə krallarından biri etiket qaydalarına çox ciddi münasibət göstərirmiş. Bir dəfə ovda olarkən təyin olunmuş vaxtda qəbul mərasiminə çata bilməyəcəyini bilən kral qasidlə belə bir sifariş göndərir: "Siz, mənim rəiyyətim, kralı gözləməyə borclusunuz, ancaq bifşteks gözləməli deyil. Mənsiz başlaya bilərsiniz".

**Dəvət zamanı diqqət yetirilməsi vacib olan nüanslardan biri də geyimdir.** Geyimə görə qarşılayıb, ağıla görə yola salırlar, deyib atalarımız. Ona görə də qarşıda müsbət nəticələr gözlədiyiniz görüş varsa, geyiminizə xüsusilə diqqət yetirməlisiniz. Çalışmalısınız ki, hər şey görüşün mahiyyətinə uyğun olsun.

Təbii ki, hər yerin öz geyimi var. Rəsmi tədbirlərdə - diplomatik qəbullarda, konqreslərdə, simpoziumlarda günün birinci yarısında iştirak edərkən ilin fəslini və havanı nəzərə almaqla açıq rəngli paltarlara, günün ikinci yarısında isə bir qədər tünd rəngli paltarlara üstünlük verilməlidir.

Qeyd edək ki, matəm əlaməti sayılan qara rəngli paltara o qədər də üstünlük vermək məqsədəuyğun deyil. Geyimin bütün komponentləri təmiz, ütülənmiş və gözəl olmalıdır. Bundan əlavə, geyim üçün seçilmiş köynək, qalstuk, çəkmələr, qadın bəzəkləri də bir-birini tamamlamalıdır. Ətir və odekolondan isə qədərincə istifadə etmək lazımdır.

Yadda saxlayın ki, dəb, yəni sizin geyiminiz ancaq öz zövqünüzdən asılıdır. İşgüzar görüşlərdə mütləq biçimli kostyum (xanımlar don da geyə bilər), gəzintiyə çıxarkən, yaxud əcnəbi məclislərinə baş çəkərkən rahat və sadə geyim olmalıdır. Əsas odur ki, hər kəs öz üslubunu tapsın və özünə yaraşanı geyinsin.

Düzgün və zövqlə seçilmiş geyimlər, rahat və uyğun ayaqqabı hər bir qadın və kişinin şax yeriməsinə, düz oturmasına, bir sözlə rahatlıq tapmasına şərait yaradır.

Etiket qaydalarına görə, yeriyərkən nə başı çox aşağı salıb ətrafdakılara altdan-altdan baxmaq, nə də çox yuxarı tutub ətrafdakılara "yuxarıdan aşağı boylanmaq” yaxşı hal hesab olunmur.

**gizir X.Tağıyeva**

## Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti mayor Yalçın Həsənova və baş gizir Rövşən İsmayılova qayın**atalarının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17074 saylı hərbi hissənin şəxsi heyəti müddətdən artıq xidmət edən həqiqi xidmət hərbi qulluqçusu Elşad Qasımova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: mayor R.Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000